VAHİD AZƏRBAYCAN UĞRUNDA!
# iki sahil
Çərşənbə axşamı 2 iyun 2009-cu il

YUSİF SEYİDOV- 80

# Ana dilimizin vurğunu





Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birgə tanınmış alim, Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Yusif Seyidovun 80 illik yubileyi geniş qeyd olundu.

Mərasimdə giriş sözü ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli yubilyarın keçdiyi həyat yolundan, ədəbi dil istiqamətindəki yorulmaz fəaliyyətindən ətraflı danışdı.

Qeyd olundu ki, 1929-cu il mayın 2-də Naxçıvan MR-in Şərur rayonunun Yengicə kəndində dünyaya göz açan Yusif Mirəhməd oğlu Seyidov orta məktəbi burada bitirdikdən sonra təhsilini ikiillik Müəllimlər İnstitutunda davam etdirib. Daha sonra isə Azərbaycan Dövlət Universitetində təhsil alıb, inistitutu bitirdikdən sonra müxtəlif illərdə universitetin "Ümumi dilçilik" kafedrasında müəllim, baş müəllim, dosent, professor işləyib.

Vurğulandı ki, ömrünün 60 ildən artıq bir dövrünü Azərbaycan Dövlət Universitetində doğma dilin tədrisinə, yüksək ixtisaslı dilçi kadrların yetişməsinə həsr edən görkəmli şəxsiyyət və gözəl insan Yusif Seyidov Azərbaycanda dilçilik elminin inkişafına böyük töhfələr verən, Azərbaycan dilçilik məktəbinin yaranmasında sonsuz xidmətləri olan bir alimdir. "Sözün hikməti", "Sözün şöhrəti", "Azərbaycan dili", "Klassik Azərbaycan şairləri söz haqqında (XI-XVIII əsrlər)" və bu kimi onlarla əsərin müəllifidir.

Daha sonra yubilyara universitet rəhbərliyi adından müxtəlif hədiyyələr təqdim olundu.

Alimin dostları, tələbə yoldaşları adından çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, NDU-nun "Azərbaycan ədəbiyyatı" kafedrasının professoru, filologiya elmləri doktoru Yavuz Axundlu, Azərbaycan Dillər Universitetinin "Azərbaycan dilçiliyi" kafedrasının professoru, filologiya elmləri doktoru Adil Babayev, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru, professor Kamran Əliyev, AMEA-nın həmin institutunun baş elmi işçisi, filologiya elmləri doktoru Muxtar Kazımoğlu, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əliyar Səfərli, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizami Xudiyev, Bakı Dövlət Universitetinin "Azərbaycan dili və onun tədrisi" kafedrasının müəllimi, filologiya elmləri doktoru Hüseyn Əsgərov, NDU-nun tələbələri adından isə Tarix-filologiya fakültəsinin III kurs tələbəsi, Universitet Gənclər Təşkilatının sədri Arzu Abdullayev yubilyarı təbrik edərək ona ürək sözlərini çatdırdılar.

Sonda yubilyar ona göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığını bildirdi.

**Nərmin Cəfərova,**
*NDU-nun Mətbuat şöbəsinin əməkdaşı*